**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**BƏNÖVŞƏ GÜLOĞLAN QIZI MƏMMƏDOVA**

# İNTERNET MƏTNLƏRİN PRAQMATİKASI (İNGILIS VƏ AZƏRBAYCAN DILLƏRININ MÜQAYISƏSI ƏSASINDA)

5714.01 – Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2015**

**Tədqiqat işi Bakı Slavyan Universitetinin**
**Ümumi və rus dilçiliyi kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** filologiya elmləri doktoru, professor
Azad Yəhya oğlu Məmmədov

**Rəsmi opponentlər:** filologiya elmləri doktoru, professor
Tamilla Həsən qızı Məmmədova

filologiya üzrə fəlsəfə doktoru, dosent
Məhəbbət Nəcəf qızı Əsədova

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Dilçilik, İngilis dili kafedraları

Müdafiə "_27__" "___01______" 2016-ci il saat "_____" Bakı Slavyan Universitetinin nəzdində filologiya üzrə elmlər doktoru və filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.071 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1014, Bakı şəhəri, S. Rüstəm küç., 25.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat " ____" " __________" 2015-ci ildə göndərilmişdir.

D.02.071 Dissertasiya Şurasının Elmi katibi
filologiya üzrə fəlsəfə doktoru, dosent **N.R.MUQİMOVA**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrün aparıcı kütləvi informasiya texnologiyası olan internet müxtəlif işlərin yerinə yetirilməsində geniş tətbiq olunur. İnternet həm informasiyanın toplanması, saxlanması, işlənməsi, ötürülməsi kimi funksiyaları yerirnə yetirir, həm müxtəlif kommunikasiyaların həyata keçirilməsini reallaşdırır, həm də insanların daxil olub problemlərini həll etdiyi virtual məkan rolunu oynayır. İnsanların kütləvi cəlb olunduğu virtual sosial mühitdə, internetdə, şübhəsiz ki, ünsiyyət yaratmaq xüsusi əhəmiyyət kəsb edir. Ünsiyyətin əsas vasitəsi dildir. Nəticədə, internet dilin və mətnin yaradılması, bu dilin təkmilləşdirilməsi, nəhayət, ciddi öyrənilməsi dövrün aktual problemlərindən birinə çevrilmişdir. İnternet kommunikasiya mürəkkəb və çoxtərəfli proses olub az öyrənilmiş sahələrdəndir.

İnternetin funksiyalarının çoxluğu nəticəsində həmin funksiyaların bir qisminin reallaşdırılmasında ingilis və rus dillərinin geniş tətbiq olunması aşkar hiss edilir. Hər bir ölkədə milli dilin tətbiqi ilə bağlı milli dilli internet məkanı formalaşmışdır. İnternet dilin tətbiqi və istifadə olunması, şübhəsiz ki, onun formalaşma və inkişafının hərtərəfli öyrənilməsini aktuallaşdırır. Müxtəlif dillərə dair belə tədqiqatlar aparılsa da, hələlik internet dilin həm ümumi şəkildə, həm də milli dil səviyyəsində bir çox problemləri açıq qalmaqdadır.

İngilis dilində internet mətnləri qloballaşan dünyada çox böyük vüsət almışdır. Burada ingilis dilinin qlobal statusu da az rol oynamır. Bu günə qədər Azərbaycan internet dili ilə bağlı kiçik məqalələr nəzərə alınmazsa, demək olar ki, tədqiqat işləri aparılmamışdır. Dilçiliyimizdə internet kommunikasiyanın, internet dilin nə ümumi, nə də xüsusi məsələləri öyrənilmişdir. İnternet kommunikasiyanın müxtəlif janrlarından Azərbaycan internet məkanda istifadə olunsa da, bu janrlar dilçiliyimizdə araşdırma obyekti olmamış, onların xüsusiyyətləri tədqiq edilməmişdir.

Bu baxımdan hər bir janrın dil xüsusiyyətlərinin həm təsviri, həm də müqayisəli planda öyrənilməsi indi həlli vacib olan məsələ kimi qalmaqdadır. İnternetdə nitq aktını müsahibə çatdırmaq bu aktın yazılıb ötürülməsi tələbini ortaya atır. Digər tərəfdən, internet dil bir çox xüsusiyyətləri ilə şifahi dilə və ya danışıq dilinə yaxınlaşır. Belə olan təqdirdə dilin funksional fərqli forması olan internet dilin şifahi, yazılı və ya şifahi-yazılı dil olması faktına aydınlıq gətirmək çox əhəmiyyətlidir.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan dilçiliyində ilk dəfə olaraq ingilis və Azərbaycan dillərinin materialları əsasında internet-dil kompleks şəkildə tədqiq edilir. Tədqiqatda internet-kommunikasiyanın xüsusiyyətlərini tədqiq etməklə yanaşı onun janrları müəyyənləşdirilir, bu janrların oxşar və fərqli xüsusiyyətləri müqayisəli şəkildə öyrənilir. İlk dəfə olaraq elektron poçt, çat, forum, bloq, sosial şəbəkə kimi anlayışların linqvistik şərhi verilir və bu sosial şəbəkələrin fəaliyyətində dilin istifadə imkanları və xüsusiyyətləri aydınlaşdırılır.

**Tədqiqatın obyekti** elektron kommunikasiyadır. Kompüter kommunikasiyası qlobal internet şəbəkəsində kommunikativ qarşılıqlı təsirin reallaşma yolları və vasitələri kimi qəbul edilmişdir.

**Tədqiqatın predmeti** ingilis və Azərbaycan dillərinin materialları əsasında internet mətn, dil və internet kommunikasiyanın müxtəlif janrlarıdır. Bu işdə internet kommunikasiyanın elektron poçtu, çat, forum, bloq janrlarına müraciət olunmuşdur.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi ingilis və Azərbaycan dillərinin materialları əsasında internet mətnin xüsusiyyətlərini öyrənməkdir. Bu məqsədə aşağıdakı vəzifələrin həlli ilə nail olunur: 1) internet kommunikasiya anlayışının müəyyən edilməsi; 2) virtual diskursu araşdırmaq; 3) ingilis və Azərbaycan dillərində internet kommunikasiyanın janrlarını müəyyənləşdirmək; 4) hər iki dildə internet dilin spesifik xüsusiyyətlərini aydınlaşdırmaq; 5) internet mətn və kommunikasiyanın praqmatik yönümlülük və informativlik məsələlərini öyrənmək; 6) internet dildə istifadə olunan spesifik vasitələri və onların xüsusiyyətlərini aydınlaşdırmaq; 7) internet kommunikasiyanın müxtəlif janrlarının dil xüsusiyyətlərini araşdırmaq.

**Tədqiqatın mənbə və materialı**. Tədqiqat işində internet resurslardan, ingilis və Azərbaycan dillərində olan saytlardakı materiallardan, bu sayt və səhifələrdə təşkil olunan çat və forumların materiallarından, eləcə də şəbəkədə yerləşdirilmiş bloqlardan istifadə olunur. Tədqiqata həmçinin internet mətnə və dilə dair elmi məqalələr və monoqrafiyalardan nümunələr də cəlb edilmişdir.

**Tədqiqatın metodları.** Tədqiqat iki müxtəlifsistemli dillərin – Azərbaycan və ingilis dillərinin materialları əsasında aparıldıqdan araşdırma zamanı tipoloji- müqayisə metodundan istifadə olunub. Eyni zamanda kontekst təhlil, müqayisəli təhlil və diskursiv təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti**. İnternet mətnə, dilə kompleks şəkildə yanaşma, internet janrlarda dil vasitələrindən istifadə imkanlarının fərqliliyi, internet ünsiyyət prosesində bu ünsiyyət iştirakçılarının bir-birindən uzaqlığı, danışığın mətn əsasında getməsi linqvistik təhlilin yeni istiqamətlərini açır. İlk dəfə olaraq şifahi-yazılı dil məsələsi qoyulur və internet dilin tədqiqinə bu aspektdən yanaşılır. Azərbaycan dilçiliyində internet mətnlərin, kommunikasiyanın xüsusiyyətlərinin və internet janrların öyrənilməsinə elmi-nəzəri zəmin yaradılır.

İnternet mətnlərin, kommunikasiya janrlarının dilində istifadə olunan dil vasitələrinin toplanması, yalnız internet dil üçün səciyyəvi olan bu vasitələrin lüğətlərinin hazırlanması işin praktik əhəmiyyətini təşkil edir. Dissertasiyada əldə olunan nəticələr internet dilin tədrisi, elektron kommunikasiyanın xüsusiyyətləri, mətn dilçiliyi ilə bağlı seminarlarda istifadə oluna bilər.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Elektron poçt, çat, forum, bloq internet kommunikasiyanın əsas janrlarını təşkil edir. İnternet mətnlərin janrları daim inkişaf edərək forma və məzmunca, həmçinin ünsiyyətin xarakterinə görə dəyişir. Bu, internetdə zaman keçdikcə yeni janrların yaranmasına səbəb olacaqdır.

2. İnternet kommunikasiya prosesində iştirak edənlərin nitq aktları mətn kimi formalaşır. İngilis və Azərbaycan internet dildə danışığı yazı prosesi əvəz edir. Yazı reallaşma müddətinə görə danışıqdan geri qalır. Bu cəhət internet dildə orfoqrafiyanın bir sıra xüsusiyyətlərinin nəzərə alınmamasına səbəb olur.

3. İnternet-kommunikasiya prosesində yaranan mətnlərdə baş hərflər kiçik hərflərlə əvəz edilir, durğu işarələri, demək olar ki, qoyulmur, mətndəki sözformalar bir-birinə bitişik yazılır. İnternet mətndə emosionallığın və ekspressivliyin ötürülməsi üçün xüsusi vasitələrdən istifadə olunur. Bu vasitələr internet dil inkişaf etdikcə yeniləşir.

4. İnsanla maşın arasında gedən dialoq prosesində işlənən internet-dil internet- məkanda ünsiyyətdə olanlar arasındakı danışıq prosesində istifadə edilən dildən bəzi xüsusiyyətləri ilə fərqlənir. İnternet-dil dilin funksional fərqli növü olub şifahi-yazılı dil kimi fəaliyyət göstərir.

**Tədqiqat işinin aprobasiyası**. Tədqiqat işi Bakı Slavyan Universitetinin Ümumi və rus dilçiliyi kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları elmi konfranslarda məruzə edilmiş, Azərbaycanda və xaricdə nəşr edilən məcmuələrdə çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya mövzusunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri və metodları müəyyən edilir, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilir.

Birinci fəsil «İnternet müasir kütləvi informasiyası vasitəsi kimi» iki paraqrafdan ibarətdir.

Birinci paraqrafda internet xidmət və onun kütləvi informasiya vasitələri sistemində yeri nəzərdən keçirilir. Hazırda kompüter insan məişətinə əsaslı şəkildə daxil olmuşdur. Bu gün mobil telefon və internet xidmətdən istifadə edənlərin sayı böyük sürətlə artır. Hər iki xidmət sahəsi informasiyanı uzaq məsafəyə qısa zaman fasiləsində ötürməyə və onu qəbul etməyə imkan verir. İnformasiya cəmiyyətinin əsas məqsədi informasiya bolluğunun yaradılması və bu prosesin köməyi ilə, bir tərəfdən, bəşəriyyətin qarşısında duran problemləri həll etmək, digər tərəfdən, cəmiyyətin inkişafını təmin etməkdir. Bu isə internet kommunikasiyanı qloballaşdırır[1].

İnternetdə insan fəallığı üç əsas tələbat növünün ödənilməsinə əsaslanır: kommunikativ, təfəkkür və əyləncə. İnternetin meydana gəlməsi və hamı üçün əlverişli informasiya vasitəsinə çevrilməsi, hər kəsin burada öz fikrini, söz azadlığını sərbəst şəkildə reallaşdırması informasiya inhisarçılığını aradan götürür[2].

*İnternet* termini *international* və *net* sözlərinin birləşməsindən əmələ gəlmişdir və beynəlxalq elektron şəbəkəsi anlamında işlənir. İnternet ilə əlaqədar iki əsas yanaşma mövcuddur: texnokratik (vahid standart ünvan sxemi əsasında qlobal kompüter şəbəkəsi resurslarına kütləvi çıxış imkanı, yüksək sürətli magistrallar) və sosial-humanitar (qlobal informasiya fəzası, mürəkkəb çoxölçülü sosial-mədəni fenomen, kütləvi informasiya vasitələri,

---

[1] Gitsaki, Ch., Taylor, R. Internet English. Oxford: OUP, 2000; Кутькова А.С., Ковалёва Т.А., Москалец Л.Е. Интернет в жизни планеты: Учебно-справочное пособие по английскому языку. М.: Высшая школа, 2004.

[2] Əliquliyev R.M., Mahmudov R.Ş. İnternetin mahiyyəti, xüsusiyyətləri və təsir imkanlarına dair bəzi baxışlar // İnformasiya cəmiyyəti problemləri, №1(5), 2012, s. 41-51; URL: www.cpis.az41UOT: 338:04.

virtual məkan və s.). Texniki yanaşma tərəfdarları hesab edirlər ki, İnternet məsafədəki informasiyaya çıxış imkanını və informasiyanın kompüterlər arasında mübadiləsini təmin edən qarşılıqlı əlaqəli komputer şəbəkələrindən ibarət açıq ümumdünya kommunikasiya infrastrukturudur. Müxtəlif kompüterlərdəki informasiyalar şəbəkəyə daxil edildikdə bu şəbəkəyə qoşulanların hər biri həmin materiallardan istifadə etmək imkanı qazanır. Hər bir material müəyyən mənbədə yerləşdirilməli olduğundan internet saytların yaradılması tələbatı meydana gəlmişdir.

İnternet olduqca geniş imkanlara malik kütləvi informasiya vasitəsidir[3]. İnternetdə kitab, qəzet, jurnal və s. oxumaq, radionu dinləmək, televiziyaya baxmaq olur. Bu isə internetdə radio, qəzet, televiziya və s. dillərinin olmasını gerçəkləşdirir. İnternetin imkanları ilə bağlı bilavasitə internet-dil də formalaşmışdır. İnternet dil internetdə yaradılan xüsusi səhifələrin dilini əhatə edir. Hər bir internet səhifəsinin öz strukturu, forması var. Bu baxımdan internet səhifələri qəzetlərlə müqayisə oluna bilər. Lakin burada qəzetlərdən fərqlənən bir çox cəhətlər özünü göstərir. İnternet bütün müasir kütləvi informasiya vasitələrini öz daxilində birləşdirmək imkanına malikdir. Yəni internet dilin bazasını və ayrılıqda götürülümüş bir obyektini təşkil edən hər bir internet səhifəsində həm səsli informasiya, həm də vizual informasiya özünə yer alır. İnternet vasitəsilə birbaşa bağlantı da mümkündür. Bu isə internetdə həm yazılı, həm də şifahi nitqdən istifadə etməyin mümkünlüyünü təsdiq edir.

Əsası 1969-cu ildə ABŞ-da qoyulan (Müdafiə Nazirliyinin sifarişini yerinə yetirmək üçün ilk dəfə bu ölkənin dörd kompüter şirkəti birləşmiş, sonralar Böyük Britaniya və Norveç şirkətləri də onlara qoşulmuşlar) İnternet iki əsas texnologiyaya: elektron poçta və 100 min xidmətlik (server) ümumdünya hörümçək toruna əsaslanır.

Geniş informasiya şəbəkəsinə malik olması interneti istənilən ənənəvi kütləvi informasiya vasitəsinin təhlükəli rəqibinə çevirmişdir. Lakin İnternet kütləvi informasiya vasitəsi deyil, o, yalnız informasiyanın verilməsi (ötürülməsi, daşınması) vasitəsi və informasiya xidmətinin yeni sahəsidir. Hazırda bu xidmətin kütləvi kommunikasiya sistemi ilə yaxınlaşması və onların bir-birini zənginləşdirməsi, tamamlaması prosesi gedir. Ona görə də

[3] Шеремет А.Н. Интернет как средство массовой коммуникации: социологический анализ: Автореф. дис. ... канд. социол. наук. Екатеринбург, 2003.

indi bütün kütləvi informasiya vasitələrində İnternetdən istifadə zərurətə çevrilmişdir[4].

Dünyanın virtual mənzərəsinin dəyişməsi dil daşıyıcılarının bu məkandakı nitq fəaliyyətində də dəyişmələrə səbəb olur. Artıq heç bir mübaliğəyə yol vermədən dilin yeni bir funksional üslubunun yaranmasını qeyd etmək olar. Bu, internet ünsiyyət üslubudur. Bu üslubun fərqləndirici əlamətləri yazılı tələffüz, hipermətnlilik, danışıq dilinə yaxınlaşmadır. Yazılı canlandırmaya baxmayaraq, bu üslüb üçün spontanlıq səciyyəvidir. Problemin əhəmiyyətliliyini göstərən əsas amillərdən biri milli dillərdə internet istifadəçilərinin dillərində ciddi dəyişmələrin müşahidə olunmasıdır. Hazırda başqa dillərdən təsadüfən söz alan, internet terminologiyasının yarandığı ingilis dilində də yeni funksional üslubun yaranması qeyd olunur və tədqiqatçılar getdikcə daha geniş miqyasda yayılan «Vebliş» (Web+ English) adlanan funksional üslubu öyrənməyə çalışırlar. Eyni üslub rus dilində də yayılmışdır və bu, Runet (rus dili + internet) üslubu adlanır. Zənnimizcə, Aznet (Azərbaycan dili +internet) termininin daxil edilməsi və Azərbaycan dilinin bu funksional üslubunun öyrənilməsi də aktual məsələlərdən biridir. Bunun üçün hər şeydən əvvəl internet mətnin və dilin ümumi nəzəri məsələlərini aydınlaşdırmaq, onun əsas anlayışlarını, xüsusən «internet mətn» və «internet diskurs» kimi anlayışları müəyyən etmək lazımdır.

Facebook FBML üçün interfeys işarələrinin (Facebook Markup Language Fundamentals adlanan) xüsusi dili vardır. Bu, Facebook interfeysinin hazır elementlərindən istifadə etmək imkanı verir[5].

İkinci paraqrafda internet mətnlərin janrları öyrənilir. İnternet dil texniki baxımdan yazılı nitqdir. Struktur və leksik-qrammatik vasitələrə görə bu, şifahi nitqə yaxındır. Ümumiyyətlə, internet dili öyrənmək üçün əvvəlcə bu anlayışın özünü müəyyən etmək, internet mətnlərin forma və növlərini ayırmaq lazımdır. İnternet danışıq dili janrı tədqiqat baxımından xüsusi maraq doğurur. Forumlar, ICQ, bloqlara aid şərhlər, çatlar internet danışıq dili janrlarını əhatə edir.

Mətn janrından asılı olmayaraq oxucu üçün nəzərdə tutulur. Mətnin orta səviyyəli oxucuya ünvanlanması daha geniş yayılmışdır. Mətnin xətti şəkildə açılışı və məlumatların dərinlik strukturları oxşar deyildir. Müəyyən

---

[4] İbayev Z., Kərimzadə O., Əliyev İ. Kompüter və çatışmayan biliklər. Bakı: Vətən, 2008, s. 142.

[5] Jesse Stay. FBML Essentials. Facebook Markup Language Fundamentals. O'Reilly Media, 2008, s. 130.

ölçüdə praqmatik yeni informasiyaya köklənmə mətnin informativliyini artırır. İ.R. Qalperin yazırdı: «Mətn tamlığa malik olub yazalı sənəd kimi reallaşdırılmış, bu sənədin tipinə görə ədəbi işlənmiş, addan (başlıqdan) və bir sıra xüsusi vahidlərdən (frazifövqi vahidlərdən) ibarət olub müxtəlif tipli leksik, qrammatik, məntiqi, üslubi əlaqələrlə təşkil olunmuş, müəyyən məqsədyönümlüyü və praqmatik quruluşu ilə seçilən nitq fəaliyyəti əsəridir»[6].

Mətn nitqin təşkilinin yetkin formasıdır və aşağıdakı kommunikativ xüsusiyyətlərə malikdir: 1) kommunikativ əsaslanma; 2) informativlik; 3) intensionallıq; 4) mövzü; 5) situativlik; 6) mətnlərarası əlaqə. K. Abdullayev mətnin quruluşunda özünü göstərən təkrarlıq hadisəsini onun sərhədlərini müəyyən etmək üçün vacib komponent hesab edir[7]. Mətnin kommunikativliyi onun oxucu tərəfindən qavranma dərəcəsi ilə ölçülür. Mətndə onu yaradan şəxsin nitq fəaliyyəti öz ifadəsini tapır. Bu fəaliyət eyni zamanda mətni oxuyan, dinləyən şəxsin qavrama qabiliyyətini nəzərə alır.

İnternet kommunikasiya baxımından janr öz təbiətinə və funksiyasına görə müxtəlif cür izah edilir[8]. İnternet janr kommunikativ xarakterli spesifik cəhətlərə malik forma və məzmun vəhdəti olub istifadəçilərin müxtəlif intensiyalarını reallaşdırmağa xidmət edir. İnternet şəbəkəsində olan müxtəlif mətnlər və onların variasiyaları o qədər çox və fərqlidir ki, hansı mətnin hansı janra aidliyini dəqiqləşdirmək çətinlik törədir. İnternet janra əsasən aşağıdakı amillər təsir göstərir: 1) mühitin hipermətnliyi və interaktivliyi; 2) multimediadan istifadənin intensivliyi; 3) kommunikasiyanın sinxronluğu və asinxronluğu; 4) informasiyanın yeniləşmə tezliyi; 5) mətnin müəllifi və onun auditoriyası ilə əlaqə yaratmağın mümkünlüyü; 6) mətnin adresatı, başqa sözlə desək, müəyyən janra aid mətnlərin ünvanlandığı auditoriya; 7) mətn müəllifinin xüsusiyyətləri; 8) internetin coğrafiyası.

İnternet hesabına mətnin intertekstuallığı intensiv şəkildə artır. İnternetdə şəxsin şüurunda dəyişmənin baş verməsi, şəbəkə həyat tərzi və tə-

---

[6] Гальперин И.Р. Текст как объект лингвистического исследования. Москва: Наука, 1981, s. 18.

[7] Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, s. 208.

[8] Горошко Е.И. Интернет-коммуникация: проблема жанра // Жанры и типы текста в научном и медийном дискурсе. Вып. 4. Саратов, 2006, s.165-175; Селютин А.А. Жанры как форма коммуникативного выражения онлайновой личности // Вестник Челябинского гос. ун-та. Серия филологии, искусствоведения. Вып.37. Челябинск: 2009, s. 300.

fəkkürün formalaşması dil şəraitinə əhəmiyyətli dərəcədə təsir göstərir. İnternert dillərin, o cümlədən ingilis və Azərbaycan dillərinin fəaliyyəti sahəsidir. İnternet dilin əsas xüsusiyyəti danışıq üslubudur:

*Dear colleagues,*

*First of all, Happy New Year! May the new 2015 bring you success and happiness! Having only 155 days to go to the first European Games, today we are proud to announce a broadcast deal with Sky Italia that will ensure the inaugural event's broadcasting in Italy. Sky Italia will screen live coverage and highlights across its sports channels, as well as providing extensive coverage on Sky Go.*

*Attached I am sending a press-release for your information.*

*Please let me know if any questions or requests.*

*Many thanks,*

*Aysel*

İnternet ünsiyyətin bütün formalarında inştirakçıların anonimliyi təmin olunmasa da, demokratikləşmə və sadələşmə hətta işgüzar üsluba da nüfuz edir. Onlayn formatda rəsmi standartlarda da sadələşmələr baş verir. Ünsiyyət xarakterinin sadələşməsini göstərən cəhətlərdən biri də məişət sözlərinin dövriyyəyə girməsidir. İnternet istifadəçiləri dildən sərbəst istifadə edir, səhv və normaların pozulmasına əhəmiyyət vermirlər. Belə ünsiyyətdə məlumatın forması yox, mahiyyəti əsas sayılır. İnternet dil və mətn çoxplanlı olsa da sistem kateqoriyalarına toxunmur. İngilis və Azərbaycan dillərinin internet məkanda istifadə edilməsi bu dillərə təsir göstərir, onlarda müəyyən dəyişikliklər əmələ gətirir[9]. Dəyişikliklər dilin qrafik, leksik, morfoloji, sintaktik, üslub və nitq mədəniyyəti səviyyələrinə aiddir. Dilin virtual məkanda gerçəkləşmə formaları genişdir. İnternet kommunikativlik, ekspressivlik və dialoji nitq xüsusiyyətləri ilə seçilən informasiya-ünsiyyət sistemidir:

[9] Məmmədov A. Dilçiliyin müasir problemləri. Bakı : ADU, 2008, s. 47.

*Salam.*

*Ad günü hədiyyəsi kimi şəkillərdən+ sözlər + musiqili slayd yaratmaq istəyirəm. Amma anlayışım belə yoxdur.*  *Bunun üçün xüsusi proqram lazımdır, bilənlər xahiş edirəm mənə izah etsinlər, əgər özümün bacaracağım bir iş deyilsə, onda kimə müraciət etmək olar?*

*Ümid edirəm yardımçı olacaqsız.* 

İnternet mətnin mühüm bir xüsusiyyəti də slenqlə bağlıdır. Slenq müəyyən peşə sahiblərinin və ya sosial təbəqələrin dilində işlənən söz və ifadələrin toplusu kimi izah olunur[10]. Hazırda dilə, onun leksik qatına sürətli təsiri ilə seçilən slenq inkaredilməz dil hadisəsi kimi diqqət mərkəzinə çıxmışdır. İnternetdə istifadə olunan dil kimi ingilis dili dominant mövqe tutur. Yeni yaranan internet dil üçün nəzərdə tutulan qısaltmalar, leksik-qrammatik vasitələr, digər qrafik simvollar əsasən ingilis dilində formalaşır. İnternet öz üslubunu da formalaşdırır, internet diskursun müxtəlif formaları yaranır və internet diskurs, müasir linqvistikadakı diskursdan fərqlənir.

İkinci fəsil «İngilis və Azərbaycan dillərində internet mətnlərin koqnitiv, kommunikativ və praqmatik xüsusiyyətləri» dörd paraqrafdan ibarətdir.

Birinci paraqrafda internet mətnlərin informativliyi və praqmatik yönümlüyü tədqiq edilir. İngilis dilində internet dil e-talk, geekspeek, netspeek, weblish[11] terminləri ilə adlandırılır. Rus dilində KOK (компьютерно-опосредованная коммуникация – kompüter vasitəsilə kommunikasiya) internet dil və internet kommunikasiya məqamında istifadə edilir. Azərbaycan dilində ən çox yayılmış termin variantlar «internet dil» və «internet linqvistika»dır.

İndi qloballaşan, daim dəyişən yeni texnologiyalar dövründə insanın dildən necə istifadə etməsini, onun dil bacarıq və vərdişlərinin belə bir şəraitdə funksionallıq mexanizmlərini öyrənmək problemi ön plana çıxmışdır. Digər tərəfdən, tədqiqatların koqnitiv, sosioloji və kulturoloji istiqamətləri son zamanlar daha çox diqqət mərkəzinə çəkilir. Burada da-

---

[10] Internet Slang. From Wikipedia, the free encyclopedia. http://en.wikipedia.org/ wiki/Internetslang.

[11] Crystal, D. Language and the Internet. Cambridge: Cambridge University Press, 2001, s. 204; Thurlow C. The Internet and Language // Concise Encyclapedia of Sociolinguistics. Elsaivier, 2001.

nışanın fərdi xüsusiyyətlərinin nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Əsas problem insanın dildəki yerini aydınlaşdırmaqdan ibarətdir. İndi dilin əsas funksiyası informasiyanın ötürülməsi və referensiyanın reallaşdırılması deyil, şəxsin özünün dərketmə və fəaliyyət sahəsinə nüfuz etməsidir. Dilə daha çox davranış fəaliyyətinə yönəldən sistem kimi baxılır. Danışanın fərdi keyfiyyətlərinin əhəmiyyəti bu baxımdan çox yüksəlmişdir[12].

İnternet informasiyasın praqmatik yönümlülüyü internet ünsiyyətin formalarından asılı olaraq müəyyənləşir[13]. İnternet ünsiyyətdə aşağıdakı əsas formalar var: 1) forumlar; 2) konfranslar (tele- və ya internet-konfrans); 3) feysbukda ünsiyyət; 4) çat; 5) muds; 6) elektron yazışmalar (e-mail); 7) skayp ünsiyyəti; 8) onlayn oyun ünsiyyəti və s.

Ç.Morris işarələrdən istifadə edənlərin canlı varlıqlar olduğunu əsas götürərək praqmatikanın işarələrin funksiyasını yerinə yetirdikdə psixoloji, bioloji və sosial hadisələrlə kompleks bağlı olan sistem yaratdığını qeyd etmişdir[14]. Mənanın praqmatikləşməsi hökmün mənasının praqmatik şəraitdən ayrılmazlığı ilə bağlıdır. Ünsiyyətdə istifadə olunan çox sözlərin mənaları nitq aktının kommunikativ məqsədinə görə müəyyən edilir.

Sözün praqmatik yönümlülüyünü göstərən cəhətlərdən biri adlandırma ilə mənalandırmanın fərqliliyindədir. Bəzən xüsusi adlar da kontest daxilində adlandırma funksiyasını itirir və mənalandırma funksiyası qazanır. Məsələn, *Hər oxuyan Molla Pənah olmaz* nümunəsində *Molla Pənah* həm adlandırma, həm də mənalandırma funksiyasında çıxış edir. İkinci funksiya birincini üstələyir. *Molla Pənah* adı adresatın presupozisiyası ilə fəallaşır.

İnternet kommunikasiya, internet mətn dedikdə xüsusi kommunikativ informasiya mühiti və ya elektron kommunikativ kanalla reallaşan kommunikativ məkan başa düşülür. İnternet kommunikasiya aşağıdakı xüsusiyyətləri ilə səciyyələnir: 1) polifoniklik; internet- ünsiyyət son dərəcə çox diskurs tipini birləşdirir; 2) şəbəkənin hipermətn və interaktivlik imkanları; bu cəhətlər mətnin yaranması və qavranmasını müəyyən qədər dəyişir. 3) anonimlik və distantlıq. Anonimlik ünsiyyətdə iştirak edənlərə tam sərbəstlik verir. Anonim müəllif öz arzu və istəklərini, fikirlərini hamı ilə bölüşməkdən çəkinmir. İnternet ünsiyyətin iştirakçısı heç bir nəzarət altında

---

[12] The Internet. American Studies Journal. Number 39, November 1996, s. 62.

[13] Компанцева Л.Ф. Интернет-коммуникация: когнитивно-прагматический и лингвокультурологический аспекты. Луганск: Знание, 2007, s. 134.

[14] Моррис Ч. Основная теория знаков // Семотика. Москва: Наука 1983, s. 63.

olmur. İnternet-ünsiyyətdə iştirak edən həqiqi adını, yaşını, sosial statusunu, tərcümeyi-halını və başqa faktları gizlədə bilir.

İnternet kommunikasiyada emosionallıq yüksəkdir. İnternet kommunikasiyanın fərqləndirici cəhətlərindən biri də odur ki, ünsiyyət virtual məkanda baş verir. İştirakçı real sosial mühitdə reallaşdıra bilmədiyi qeyri-normativ davranışı virtual məkanda gerçəkləşdirir. Kommunikasiya prosesində kompüter ünsiyyətin iştirakçısı (insan-maşın-insan) olsa da, onun əsas funksiyası vasitə və vasitəçilikdir. Kommunikasiyanın müxtəlif növləri arasında ən vacibi verbal ünsiyyətdir. Dil ünsiyyətin əsasında durur. Bütün digər kommunikasiya növlərində də dil sistemi, dil mexanizmi tətbiqini tapır. Hipermətnin özü də dil vasitləri olmadan qurula bilməz. İnternet xüsusi kommunikativ mühit olmaqla hipermətnin strukturuna, eləcə də onun qavranmasına böyük təsir göstərir. Hipermətnin yaradılmasını zəruriləşdirən səbəblər var. Qeyd edək ki, linqvistlərin əksəriyyəti internetdə artıq nitqin yeni formasının - «şifahi-yazılı» nitqin yarandığını qəbul edirlər[15]. İnternet kommunikasiyada nitq aktı şifahi-yazılı formada olan mətndir. Onun şifahi-yazılı olması danışıq dili prinsipləri üzərində qurularaq yazılı şəkildə ötürülməsi ilə əlaqədardır.

İkinci paraqrafda internet-kommunikasiyanın reallaşmasının linqvistik və ekstralinqvistik əsasları tədqiq edilir. Formalaşan informasiya cəmiyyəti yalnız informasiyanın toplanıb işlənməsi imkanlarının genişlənməsi ilə deyil, kommunikasiyanın yeni formalarının meydana gəlməsi və bu kommunikasiyanın xüsusi sosial şəbəkələr vasitəsilə həyata keçirilməsi ilə diqqəti cəlb edir. Müasir dilçilikdə həm «internet linqvistika», həm «internet mətn», həm «internet dil», həm də «internet kommunikasiyas» adları altında, eləcə də struktur-riyazi dilçilik, kompüter dilçiliyi, informasiya texnologiyaları sahələrində internet-mətnləri, internet-kommunikasiyanın linqvistik və ekstralinqvistik xüsusiyyətləri tədqiq edilir[16].

İnternet kommunikasiyanın elektron poçtu ingilis dilindən "Electronic Mail" söz birləşməsindən kalka edilmiş internet terminidir. Qeyri-standart variantı kimi "E-Mail" termini də istifadə edilir. Azərbaycan dilində

---

[15] Лутовинова О.В. Интернет как новая «устно-письменная» система коммуникации // Известия Российского гос. пед ун-та им. А.И.Герцена: общественные и гуманитарные науки. СПб., 2008, №11 (71), s. 59; Yates S.T.Oral and Written Linguistics Aspects of Computer Conferencing^ A Corpus Based Study //Communication: Linguistic, Socialand Cross-Cultural Perspective. Amsterdam: John BenjaminsPublishing, 1996, s. 29-46.

[16] Mahmudov M. Kompüter dilçiliyi. Bakı: Elm və Təhsil, 2013, s. 76.

terminin imeyl, emeyl, emayl, eləcə də E-mail, e-meyl və s. variantlarına da rast gəlinir.

İnternet şəbəkəsində müxtəlif poçt serverlərin olması eyni şəxsin müxtəlif sayda poçt ünvanı açmasına imkan verir. Poçt ünvanlarının birinci tərəfi ada uyğun gəlir. Lakin insanlar arasında eyni adli şəxslər az deyildir. Buna görə də elektron ünvanda adın şəkildəyişmiş formaları qeydiyyata alınır. Linqvistik baxımdan maraq doğuran müxtəlif adlar kompleksi meydana çıxır. Bu kompleksin yaranmasına internetdə qoyulan tələblər və adların eyniliyindən irəli gələn məhdudiyyətlər təsir göstərir. Bütün bu internet onomastikanın formalaşmasına təsir göstərən ekstralinqvistik amillərdir.

İnternetdə ünvan məqsədi ilə seçilən adların bu adı seçənin şəxsi adı və soyadı, ümumiyyətlə onun özü ilə birbaşa bağlı olmaya da bilər. Bu seçim özü üçün şəbəkədə internet ünvan yaradan şəxsdən asılı olur. Seçim praqmatik cəhətə malikdir və müəyyən əlavə informasiyalar daşıyır. Yəni adın seçilməsi mütləq müəyyən məntiqlə bağlı olur. Başqa istifadəçi bu bağlılığı müəyyən etməkdə çətinlik çəkə bilər. Bəzi hallarda seçimlə bağlı məntiq o qədər bəsit olur ki, başqa istifadəçilər də adın hansı əsasla seçilməsini, onun mənasını izah edə bilir. Ümumiyyətlə, internet şəbəkədə internet kommunikasiya və internet şəbəkəsinin elektron poçtu janrında işdən ötrü seçilmiş adlar rəngarəng və müxtəlifdir.

Üçüncü paraqrafda internet reklam mətnlərinin xüsusiyyətləri öyrənilir. Reklam mətnləri kommunikativ və praqmatik mətnlərə aiddir[17]. Reklam mətninin praqmatik istiqamətdə tədqiq edilməsində mətni tərtib edənin (müəllifin) kommunikativ niyyətinə çatmaq üçün istifadə etdiyi dil və qeyri-dil vasitələrinin resipientə təsirini aydınlaşdırmaq lazımdır. Praqmatik tədqiqatlar üçün internet reklamlar xüsusi material ola bilir. İnternet reklamların nitq intensiyasının sistemli təsviri, nitq aktları və kommunikativ strategiya və taktika baxımından öyrənilməsi linqvistik praqmatikada yeni perspektivli istiqamət hesab olunur[18].

Nitq aktları nəzəriyyəsinin müddəalarına əsaslanmaqla internet reklamları həm daxili, həm də xarici struktura görə öyrənmək mümkündür. Şəbəkədə reklam kommunikasiyasının xarici strukturunun bütün xüsusiyyətləri, o cümlədən adresantın və adresatın kommunikativ niyyəti məlu-

---

[17] Leech C.N. Principles of Pragmatics. London; N.Y.: Longman, 1983.

[18] Лившиц Т.Н. Реклама в прагмалингвистическом аспекте. Таганрог: ТГПИ, 1999, s. 86.

matın forması, əlaqə kanalı, kodu, mövzu, kontekst kimi hadisələrin internet xüsusiyyətlərindən asılı olaraq araşdırılır.

İnternet şəbəkədəki reklam mətninin daxili strukturunu üçsəviyyəli quruluş kimi təsəvvür etmək olar. Bura lokusiya, illokusiya və perlokusiya aiddir. Reklam kommunikasiyasının bu üç aspekti sıx vəhdətdədir. Mətn yaradılarkən (lokusiya) illokusiya reallaşır. İllokusiya dildənkənar məqsəd olub adresant (reklamverən) tərəfindən müəyyənləşdirilir. İllokusiya elə qurulur ki, adresata təsir göstərilsin və nəticə əldə edilsin (perlokusiya).

Reklam kommunikasiyasının praqmatik əsas funksiyasını əksər hallarda direktivlər yerinə yetirir . Direktiv intensiya kommunikantlardan birinin müsahibinə – adresata elə təsir göstərməkdir ki, bunun nəticəsində adresat müəyyən fəaliyyəti yerinə yetirmir. Adresant müəyyən səbəbdən bu fəaliyyətin reallaşmasını istəyir. İnternet reklam mətni dinamik qurulur. Eyni obyektin reklamı zamanı müxtəlif şəkillərdən istifadə etmək mümkündür. Reklam mətni elə qurulur ki, şəkil və yazılar müəyyən fasilələrlə bir-birini əvəz edir. Şəkil və yazının dəyişməsi adresatın eyni reklam mətni ilə tanışlıq prosesinə çox vaxt sərf etməsinə səbəb olur. Məsələn, Lent.az saytında «Samsunq Qalaksi» telefonunun reklamı kombinə edilmiş reklamdır. *Arzunuza çatmağın yolunu bilirsinizmi?* sualı dördbucaqlı sahədə ağ şriftdə hərəkətli şəkildə, tədricən yazılır. Sual cümləsi tamamlanan kimi kvadratın rəngi və yazısı itir. Müəyyən fasilələrlə üç yeni kadr dördbucaqlı ekranda görünür. Hər üç kadrda fərqli şəxslər göstərilir, telefonun fərddən uzaqlığı fərqli təsvir edilir. Bundan sonra həmin düzbucaqlıda başqa zəmində «Albalı» + «Unibank» yazısı aşkarlanır. Müəyyən fasilədən sonra kadr itir və birinci kadr peyda olur. Reklam bu ardıcıllıqla səhifədə daim təkrarlanır.

Reklamın bu şəkildə yerləşdirilməsi ekstralinqvistik amillərin adresatın diqqətini daha çox zaman daxilində cəlb etməsinə səbəb olur. Sual cümləsi ilə dialoq effektinin yaradılması adresatı suala cavab axtarmağa sövq etdirir. Adresat «Albalı» mağazalar şəbəkəsi haqqında prepozisiyada müəyyən məlumata malik olmalıdır. Reklam mətninə daxil edilmiş «+» işarəsi iki obyektin bağlılığını ifadə edir. İnformasiyaları bir-biri ilə əlaqələndirməklə «Unibank» krediti ilə «Albalı» mağazalar şəbəkəsindən telefonu almağın mümkünlüyü aydınlaşır. Reklam mətnində arzuya çatmağın yolunu soruşmağın mahiyyəti belə açıqlanır: *Deməli. Arzuya çatmaq istəyirsənsə, bankdan kredit almaq, həmin kreditlə mağazaya gedib teleyonu almalısan.* Göründüyü kimi, internet reklam mətnində təhrikin tamamilə başqa vasitə ilə verilməsi halı ilə qarşılaşırıq. Bu reklamda fikrin

ifadə olunması üçün həm verbal, həm də qeyri-verbal ifadə vasitələri istifadə olunmuşdur.

Reklam edilən məhsul haqqında əsas informasiya reprezentativlərlə təqdim olunur. İnternetdə yerin azlığı çox zaman əsas informasiyanın təqdim edilməsinə səbəb olur:

*Free Nokia 6303 classic. Halt price for month. Normally 15 per manth. 100 mins+100 text. 3.2 megapixel camera. Nokia maps application. Extended battery life. Impressive 2.2. screen. Click for more info.*

Verilmiş reklam mətnində «Nokia 6303» telefonu təklif olunur. Mətndə ən vacib məlumatlar yer alır. Lakin bu vacib məlumatlar elə seçilir ki, onlar adresatı maraqlandıra bilsin. Qeyri-verbal sırada təqdim olunan malın şəkli qoyulur.

İnternet reklamda mətnin yığcamlığı şərtdir. İnternet reklam mətnlərinin kommunikativ-praqmatik cəhətləri kommunikativ strategiya və kommunikativ taktika ilə sıx əlaqədardır. Kommunikativ strategiya kommunikativ məqsədə nail olmağa istiqamətlənmiş müəyyən nitq fəaliyyəti kompleksidir.

Dördüncü paraqrafda qeyri-kanonik internet janrların praqmatikası tədqiq edilir. Qeyri-kanonik internet janrları yalnız internet mühitdə fəaliyyət göstərən janrlardır. Qeyd olunduğu kimi, elektron poçt, ICQ, çat, forum, sosial şəbəkə, oyun portalı, bloq və s. qeyri-kanonik internet janrlardır. ICQ virtual diskurs janrıdır. Real zamanda (online) müxtəlif sayda müsahiblə dialoji nitq formasında ünsiyyətdə olmağı nəzərdə tutur. Bu janr iki nəfərin iştirak etdiyi dialoji nitq əsasında modelləşdirilmişdir. İnternet Relay Chat (IRC) qısa formada Chat (çat) adlandırılır. Çat internetdə onlarla, yüzlərlə adamın mətn vasitəsi ilə bir-biri ilə ünsiyyət prosesidir.

ICQ və IRC proqramları modelləri üzrə sonradan internet mətn və kommunikasiyanın başqa janrları yaranmışdır. Bu janrlardan ən geniş yayılanı sosial şəbəkədir. Sosial şəbəkə virtual diskurs janrıdır. Bu, kompleks şəbəkə quruluşudur. Sosial şəbəkədə forum, şəbəkə birlikləri və ICQ xüsusiyyətləri birləşdirilmişdir. İlk olaraq sosial şəbəkə dostlarını, sinif və qrup yoldaşlarını, iş yoldaşlarını axtarıb tapmaq, onlarla ünsiyyət qurmaq üçün istifadə edilmişdir. Hazırda «Facebook.com», «В Контакте.ru», «Myspace.com» kommunikativ sosial əlaqələrin yaradılması məqsədi daşımaqla yanaşı, iş axtarmaq, elan vermək, tanışlıq yaratmaq və s. məsələlər üçün istifadə edilir. Müxtəlif saytlar, forum və sosial şəbəkələr yaratmaqla daha çox adamı cəlb etməyə çalışırlar. İnternet forumlar

internet kommunikasiyanın populyar janrlarından biridir. Forumlar müxtəlif cür təşkil edilir. Saytda müəyyyən mövzular, fikirlər, müddəalar ortaya atılır. Həmin mövzulardan hansısa iştirakçının diqqətini cəlb etdikdə, o, foruma qoşulur. Bir forum çərçivəsində çoxlu sayda iştirakçı bir-biri ilə ünsiyyət yaradır.

İnternet dildə emosiyanın ifadə olunmasının səciyyəvi halı erratik yazıdır. Erratik yazıda mövcud orfoqrafiya qaydaları təhrif olunur və bununla deyilən fikrə komik çalar verilir. Bəzən orfoqrafiya qaydalarının açıq-aşkar şəkildə pozulması danışığın fonetik mətn forması almasına səbəb olur. Orfoqrafiya qaydalarının pozulması istifadəçinin nitq aktını yığmaq üçün sərf etdiyi vaxta qənaətlə əlaqədar baş verir: *Love=luv, to you=2u, forever=4ever, con-gratulations!=Congrats!*

Yazılışda errativasiya emosiyanın ötürülməsi üçün nəzərdə tutulur. Emosiyanın ötürülməsi üçün errativasiya ilə yanaşı prolonqsiyadan da istifadə olunur. Prolonqasiya uzadılan səsin yazıda verilməsidir. Bu məqsədlə qrafemin təkrarlanması və defisli yazı tətbiq edilir: *She is soooo auuute!!! Lo-o-o-v-v-e-e-e them aaaallll!!!*

İngilis və Azərbaycan internet dilləri materiallarının müqayisəli təhlili göstərir ki, emosional vəziyyətin ifadə vasitələri hər iki dil üçün səciyyəvidir. Bu cəhət ingilis internet dilin Azərbaycan dilinə, həmçinin rus dili vasitəsilə Azərbaycan dilinə təsirinin nəticəsidir. Azərbaycan internet dili rus və ingilis internet dili vasitələrini alır. Bu cəhət internet dildə alınmalar məsələsini ortaya atmağa əsas verir.

İnternet kommunikasiya prosesində istifadə edilən cümlələr elliptikliyi, söz sırasını dəyişkənliyi ilə seçilir. İnternet kommunikasiyanın dili, əsasən, sadəliyə meyillidir. Feli sifət, feli bağlama, məsdər tərkibləri, bir neçə budaq cümləsi olan mürəkkəb cümlələr bu dildə az işlədilir. Qeyd edək ki, internet kommunikasiyada iştirakçılardan biri dilin norma və qaydalarına düz əməl etdikdə, başqalarına normaları pozmamağa çağırdıqda ona münasibət dəyişir. Belə vəziyyət sürətli danışıq janrları üçün səciyyəvidir.

Beləliklə arasdırma zamanı aşağıdakı nəticələr əldə edilmişdir:

1. İnternet mətn və dildə müxtəlif dillərin daşıyıcılarının qəbul etdiyi ixtisar formaları vardır. İnternet kommunikasiyada danışıq dilində düşünülsə də yazı ilə verilən məlumatlar klaviaturada yığılır. İnternet nitq aktını sürətlə yığmaq məqsədilə bir çox ixtisar formalarından və qəbul edilmiş qısaltmalardan istifadə edirlər. Bəzi qısaltma formaları ənənəvi dilçilikdə tətbiq olunan abbrevasiyanın heç bir tipinə uyğun gəlmir.

2. Mətn sərhədlərinin təyinində informasiyanın xüsusi rolu vardır. Tədqiqatçılar mətnin informativliyindən bəhs etsələr də, onun sərhədlərinin təyinində informasiyanın roluna az diqqət yetirirlər. Halbuki, hər hansı mətn informasiyanın formalaşdırılması, onun ötürülməsi üçün yaradılır. Mətn informasiyanı ötürmək, saxlamaq, qorumaq məqsədlərini daşıyır. Belə olan halda bir cümlə də mətnin xüsusi forması kimi özünü göstərir. Deməli, mətni iki və daha artıq cümlə ilə təyinetmə özünü doğrultmur.

3. Hər bir nitq prosesini yazıya almaq imkanı vardır. Bu baxımdan danışıq prosesində səslənən nitqi də yazıya almaq mümkündür. Deməli, yazılı mətni şifahi nitqdən fərqləndirən bir cəhəti, yəni şifahi nitqi yazıya almaqla yazılı mətnlə şifahi nitqin məhsulunu fərqləndirən bir amil ortadan götürülür. Lakin şifahi nitqə xas olan başqa amillərlə bağlı bir sıra fərqlər yenə də qalır.

4. İnternetin meydana gəlməsi ilə cəmiyyətdə mətnin, eləcə də diskursun xüsusiyyətləri dəyişir. İnternet birlikdə insan-obraz mətnə bərabərləşir və bu özünü insanın yaradıcılıq mənini təsdiq etmək imkanlarına yeni üfüqlər açan çatlarda aşkar göstərir. Bundan başqa, çatla ünsiyyət quranlar nitqin tembri, məntiqi vurğu, emosional çalar, səsin tembri, gücü, diksiya, jest və mimika kimi köməkçi vasitələrdən istifadə etmək imkanlarından tamamilə məhrum olmuşlar. Bu isə nitq ünsiyyətinin etibarlılığını aşağı salır, nitq aktında qeyri-verbal vasitələrin istifadə həcmini 55%-ə qədər qaldırır. Nitq emosional çalarlarını tam itirmiş olur. Bu vəziyyətdən çıxış yolu da internet istifadəçilərinin özləri tərəfindən tədricən tapılmışdır

5. İnternet hesabına mətnin intertekstuallığı intensiv şəkildə artır. İnternetdə şəxsin şüurunda dəyişmə baş verməsi şəbəkə həyat tərzi və təfəkkürü formalaşması dil şəraitinə əhəmiyyətli dərəcədə təsir göstərir.

6. Linqvistik cəhətdən mətnşünaslıqda yeni hadisə olan hipertekstdən söhbət gedir. Hipermətn yeni düşüncə tərzinin dil inikasıdır. Hipermətn çoxsaylı transformasiyaya, məzmunun çoxlu üsullarla şərhinə qabildir. Hiperistinadlar bir-biri ilə əlaqəli, eyni zamanda bir-birindən nisbi asılı olmayan informasiyaları hissələrlə qurmaq imkanını təmin edir. Süjetin variantlılığı ünsiyyətin bütün iştirakçılarının mətnlərini fəal yaradılması və inkişafına əsas verir.

7. İnternetdən istifadə artdıqca dilin müxtəlif səviyyələrində - fonetika, leksika, sintaksis, morfologiya, üslubiyyatda proseslər baş verir. Bəzi sözlərin qrafik formaları səslənmə formalarına uyğun yazılı şəkildə verilir.

8. İnternet ünsiyyətin getdikcə genişlənməsi bir çox qısaltma və ixtisarların tədricən istifadəçilər tərəfindən qəbul olunacağını, internet dilin

təsbit olunmuş normalarının yaranacağını istisna etmir. Belə bir cəhət internet dilinin müxtəlif səviyyələrdə sosial şəbəkə materialları əsasında geniş təhlilini tələb edir. Tədqiqatın statistik səviyyədə aparılması ümumiləşdirmə imkanı verəcəyinə inamı artırır.

9. İnternet şəbəkədə yeni sözlərin meydana çıxması, söz yaradıcılığı, sözalma, alınmalar, nəhayət yalnız internet dili üçün səciyyəvi olan sözlər, işarələr kifayət qədər çoxdur. Demək olar ki, əksər sözdüzəltmə modelinin əsasında ingilis dilinin kök morfeminin kalkası durur. Yalnız morfemlər deyil, abbreviaturlar da alınır. Bu alınmalar yeni sözlərin düzəldilməsi prosesində kök morfem kimi işlədilir. Alınma elementlər Azərbaycan dilində sözdüzəltmə qaydaları üzrə istifadə edilir. Bu baxımdan internet dilinin leksikası da ayrıca tədqiqat obyekti kimi diqqət mərkəzinə çəkilməlidir.

10. İnternet mətnlərində jarqonizmlərdən istifadə artır. Belə sözlər qısa operativ informasiyanı gücləndirir, onu canlandırır, auditoriyanın diqqətini cəlb etməyə xidmət göstərir. Ünsiyyətin onun iştirakçılarına etibarının artırılması tonu söz və ifadələrlə, jarqonizmlərin köməyi ilə həll edilir.

11. İnternet dilinin mühüm bir xüsusiyyəti də slenqlə bağlıdır. Hazırda dilə, onun leksik qatına sürətli təsiri ilə seçilən slenq inkaredilməz dil hadisəsi kimi diqqət mərkəzinə çıxmışdır. Bir vaxtlar müxtəlif qruplar arasında slenq məsələsinə baxılırdısa, hazırda internet slenqinin tədqiqi daha aktual mövzuya çevrilir. İnternet vasitəsi ilə ünsiyyət, daha çox uşaqlar və gənclər arasında yayılır. Onların internet asılılığı meydana çıxır. İnternet vasitəsilə aparılan danışıqlar «internet danışıq dili»ni formalaşdırır və bu dil sürətlə geniş yayıldığından ümumi danışıq dilinə güclü təsir göstərməyə başlayır.

12. İnternet kommunikasiyanı şərti olaraq kanonik və qeyri-kanonik formalara ayırmaq mümkündür. Kanonik janrlar ədəbiyyatda, linqvistikada və ya mədəniyyətdə tətbiqini tapmışdır. Məsələn, reklam janrı kanonikdir. Janr internet mühitə gəlmədir, yəni əvvəl KIV-də yer almış bu janr indi internetdə də tətbiqini tapmışdır. Qeyri-kanonik janrlar internet mühitdə əmələ gəlmiş və bu mühitdən kənarda mövcud deyildir.

13. İnternet dilinin intralinqvistik və ekstralinqvistik xüsusiyyətlərini açmaq, internet janrlarını həm ayrılıqda, həm də müqayisəli şəkildə təhlilini verməyi tələb edir. Belə tədqiqat dilin başqa ünsiyyət sferalarındakı oxşar materiallarla müqayisə üçün geniş imkanlar açır.

14. Qeyd etmək lazımdır ki, internet kommunikasiyada orfoqrafiya qaydalarını pozmaq hansısa qaydaların, o cümlədən etiketin pozulması sayılmır. Kommunikantlar bunu normal qəbul edir. İnternet dilinin arqo və

jarqonları da yaranmışdır. İngilisdilli internetdə LOLspeek və ya LOLcat jarqonu istifadə olunur. Bu jarqonların tətbiq sferaları fərqlidir.

15. İnternet dilində emosiyanın ifadə olunmasının səciyyəvi halı erratik yazıdır. Erratik yazıda mövcud orfoqrafiya qaydaları təhrif olunur və bununla deyilən fikrə komik çalar verilir. Neqativ emosiya bildirilir. Bəzən orfoqrafiya qaydalarının açıq-aşkar şəkildə pozulması danışığın fonetik mətn forması almasına səbəb olur.

İnternetdə mətn yalnız kommunikasiya və informasiyanı ötürmək funksiyasını deyil, həm də istifadəçilərin emosional vəziyyətindən məlumat vermək funksiyasını yerinə yetirir. İnternet dil yazılı olub vizual qəbul edildiyindən hiss və fərdin predmetə münasibəti əlavə konnotasiya vasitələri tələb edir. Yazılı poliloqda fonetikanın funksiyalarını qrafika yerinə yetirir. Emosiyanın ötürülməsi üçün errativasiya ilə yanaşı prolonqsiyadan da istifadə olunur.

Praqmatik mətnlərin struktur-linqvistik parametrlərinin təhlili göstərir ki, belə mətnlər kompozisiya, sintaktika, qrammatik və leksik səviyyələrdə spesifik xüsusiyyətlərə malikdir. Belə mətnlər məntiqlik, konkretlik, eksplisitlik, tipik sintaktik və qrammatik konstruksiyalarla səciyyələnir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalələrdə öz əksini tapmışdır:**

1. İngilis dilinin leksik inkişafında floranın rolu // AMEA Əlyazmalar İnstitutu, Filologiya məsələləri № 5, Bakı, 2011, s. 66 – 71

2. İngilis musiqi terminləri və onların semantik xüsusiyyətləri // Mütərcim, № 4. Bakı, 2011, s. 50 – 55

3. İnternet dilinin ifadə vasitələri // Mütərcim, № 4, Bakı, 2012, s. 111 – 116

4. Средства выражения языка интернета // Гуманıтарна освıта в технıчнıх вншнх навчальних закладах. Выпуск 27, Зıборник наукових праув. Киiv, 2013, s. 160 – 170

5. İnternet dilinin əsas xüsusiyyətləri haqqında // Xarici dillərin tədrisinin aktual problemləri V respublika elmi-praktik konfransının materialları. Bakı, 7 – 8 iyun 2013, s. 229 – 235

6. İnternet dilinin əsas xüsusiyyətləri // ADU-da Ümümmilli lider Heydər Əliyevin anadan olmasının 90-cu ildönümünə həsr olunmuş respublika elmi-praktik konfransının materialları, Bakı, 2013, s. 80 – 84

7. Azərbaycan dilində keçirilən internet forumlarının qrafik xüsusiyyətləri haqqında // Tağıyev oxuları. Elmi məqalələr məcmuəsi № 1, Bakı, 2014, s. 3 – 7

8. İnternet dilinin praqmatikası və reklam mətnlərinin bəzi xüsusiyyətləri // Azərbaycanşünaslığın aktual problemləri. Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfrans. II hissə, Bakı, 2015, 5 – 7 may, s. 232

9. Qeyri-kononik internet janrlarının linqvopraqmatikası // AMEA-nın Naxçıvan bölməsi, Elmi axtarışlar məcmuəsi, 2015, s. 25.

10. Язык общения интернет- социума в сопоставлении с нормами литературного языка // Гуманитарные исследования 2015 №4(56) Журнал фундаментальных и прикладных исследований. Россия, Министерство образования и науки Астраханской области. ISSN – 1818-4936, s. 32 – 36

11. İnternet-mətnlərin janrları // BSU Elmi əsərlər (dil və ədəbiyyat seriyası).№ 2, 2015, s. 15.

**Бановша Гюльоглан гызы Мамедова**

# ПРАГМАТИКА ИНТЕРНЕТ-ТЕКСТОВ НА АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

## РЕЗЮМЕ

В диссертации исследуется прагматика интернет-текстов на английском и азербайджанском языках. Исследование ведется на основе сопоставления структурно-семантических и функциональных особенностей интернет-текстов на английском и азербайджанском языках. Диссертация состоит из введения, двух глав, заключения, списка использованной литературы и приложения.

Во введении обосновывается актуальность темы диссертации, определяются объект, предмет, цель, задачи и методы исследования, раскрываются научная новизна, теоретическая и практическая значимость работы, представляются основные положения, выносимые на защиту.

В первой главе рассматриваются вопросы, связанные с интернетом как глобальной международной современной сетью. Освещается значение интернет-службы и определяется место интернета в системе средств массовой информации. Сопоставляются различные точки зрения на проблему интернет- текстов и определяются принципы описания фактического материала. Описываются особенности интернет-коммуникации и изучается проблема жанров и типов интернет-текстов.

Во второй главе исследуются когнитивные, коммуникативные и прагматические особенности интернет-текстов на английском и азербайджанском языках. Освещаются информативность текстов и прагматическая направленность информации на интернет-сайтах. Создание новых средств информации и новой языковой среды стало причиной появления такой проблемной отрасли, как интернет-лингвистика. Анализируются лингвистические и экстралингвистические основы реализации интернет-коммуникации. Интернет рассматривается как новая «устно-письменная» система коммуникации. Изучаются особенности рекламных текстов в интернете и лингвопрагматические свойства неканонических интернет-жанров.

В заключении представлены основные выводы и обобщения, вытекающие из содержания диссертации.

**Banovsha Guloqlan Mammadova**

# PRAGMATICS OF THE INTERNET TEXTS IN THE ENGLISH AND AZERBAIJANI LANGUAGES

## SUMMARY

Pragmatics of the internet texts in English and Azeri is studied in the work. The research is conducted on the basis of comparison of the structural and semantic, as well as functional features of the internet texts in English and Azeri. The thesis consists of an Introduction, two chapters, the Conclusion, the reference list and appendix.

The Introduction substantiates the actuality of the theme, the objective and subject, the main aim and tasks, the methods of the research, gives the scientific novelty, the theoretical and practical significance as well as, presents the main points carried out for the defence.

Chapter I deals with the matters connected with the Internet as a modern global international network. The importance of the internet service and the position of the internet in the mass media system are defined. Different opinions on the problem of internet texts are compared and the principles of description of the actual materials are determined.

Chapter II studies the cognitive, communicative and pragmatic features of internet texts in English and Azeri. Informativeness of the texts and pragmatic orientation of information on the internet sites are explored. The Creation of new means of information and new language environment has become a reason for the appearance of such a problematic branch as internet linguistics. Linguistic and extralinguistic bases of realization of the internet communication are analyzed here as well. The internet is considered as a new "oral and written" communication system. The features of the Internet advertisement texts and linguistic and pragmatic features of the non-canonical internet styles are studied.

The main items and generalizations revealed within the thesis are presented in the Conclusion.

Çapa imzalanıb: 19.12.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: *mutarjim@mail.ru*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ СЛАВЯНСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**БЕНОВША ГЮЛЬОГЛАН гызы МАМЕДОВА**

# ПРАГМАТИКА ИНТЕРНЕТ ТЕКСТОВ
## (На основе сравнения азербайджанского и английского языков)

5714.01 – Сравнительно-историческое
и сравнительно-типологическое языкознание

**АВТОРЕФЕРАТ**

Диссертации на соискание ученой степени
доктора философии по филологическим наукам

**Баку – 2015**